# İbtidai siniflərdə oxu və yazının tədrisi məsələləri

**Səma Faiq qızı Süleymanzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** rena.suleymanova.2015@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. F.A. Səfərəliyeva,
p.ü.f.d., dos. P.Ş. Paşayeva

**Açar sözlər:** orfoqrafiya, orfoepiya, ibtidai sinif, Azərbaycan dili, qaydalar
**Ключевые слова:** орфография, орфография, начальная школа, Азербайджанский язык, правила
**Key words:** spelling, orthoepy, primary school, Azerbaijani language, rules

Oxu texnikasına yiyələnməyə, dəqiq eşitməyə, öyrənməyə, tələffüzə, təhlil-tərkib prosesinə, sözün səs formasının onun mənası ilə birləşməsinə əsaslanan bir prosesdir. Sözün oxunması onun səs-hərf təkibi ilə tanışmasından başlanır. Bu təhlil nitq səsləri və onların hərflərlə ifadəsinin dərk olunmasıdır. Oxuya yeni başlamış şagirdin oxu dairəsi çox məhdud olur, yəni o, bir hərfi nəzərində saxladıqda onunla yanaşı işlənmiş digər hərfi "görməkdə" çətinlik çəkir. Oxunun hərflə aparılması isə düzgün deyildir. Heca oxunun "açarı" olduğu üçün savad təlimi dövründə hecalarla oxunun öyrədilməsi mühüm şərtdir. Bunun üçün ilk növbədə açıq hecaların oxusu üzrə işin təşkili və açıq hecaların əksi olan qapalı hecaların eyni zamanda təqdimi (-na, -an, -nə, -ən -la, -al, -lə, -əl, -nal, -ləl və s.) diqqət mərkəzində saxlanılmalıdır. Şagird oxuduğu zaman həmin sözün mənasını başa düşməyə imkan tapmır, çünki bütün fikrini sözün oxunmasına yönəldir. Mənanın anlaşılması oxudan ayrı düşür. O, La-lə, milli, ə-la-mət və s. sözlərini oxuyur, lakin hansı sözü oxuduğunu deyə bilmir. Oxu sürətinin aşağı olması sözün mənasını tutmağa, şüurluluğa imkan vermir. Şagird sözü nə ilk hecasına, nə də kontekstinə görə mənalandırmağa çalışır. Bu da güman edilməklə oxuya səbəb olur, şagird şəklə baxıb "oxuyur". Bunun qarşısı alınmazsa, yəni müəllim vaxtında tədbir görməzsə, işlədiyi sinif şagirdləri həmişə bu nöqsandan əziyyət çəkəcəkdir. Oxu prosesində oxunacaq sözün mənasının başa düşülməsi şüurluluğu təmin edir, şagirdin daha inamlı oxusuna səbəb olur. Oxu texnikasının yaradılması üçün məşq etdirici çalışmaların da aparılması vacibdir. Savad təlimi dövründə ilkin oxuya yiyələnən şagird hecanı, sözü təkrarlayır, şagird bəzən sətri itirir, yenidən ona qayıtmalı, oxumalı olur. Yenisini oxumağa başlanan şagirdlərin oxu prosesinin bu xüsusiyyətlərini savad təliminin metodikası qarşısında müəyyən tələblər qoyur. Oxu prosesində reqressiyanı (yenidən qayıtma) azaltmaq məqsədiylə savad təlimi dövründə şagirdlərə mənası olan, bir, iki hecalı sözlər təqdim edilməlidir. Bu oxu vərdişi olan uşaqlara hecanı mənimsəmək imkanı verir. Reqressiyanın azaldılması oxunun doğruluğunu təmin edir, sürətini artırır. Professor Y.Ş. Kərimov yazır: "Oxu texnikasına yiyələnmə prosesində uşaqların eşitmə qavrayışının inkişafına daha çox diqqət yetirmək lazımdır, çünki nitq səslərini yaxşı fərqləndirə bilməyən uşağın görmə qavrayışını mükəmməl inkişaf etmiş olsa da, o ən sadə sözləri belə oxumağa çətinlik çəkir. Fonetik eşitməyə, səs vərdişlərinə lazımınca yiyələnməmiş uşaqların oxusu nöqsanlı olur. Oxu texnikasına yiyələnməmiş uşaq müstəqil işləri, tədris fəaliyyətini səmərəli təşkil edə bilmir. Ona görə də fonematik təhlilə geniş yer verilmişdir. Uşaqlar şriftlərlə tanış olanadək onlarda nitqi cümlələrə, cümlələri sözlərə ayırmaq, cümlədə sözlərin, sözlərdə hecaların sayı və sırası üzrə əməliyyatlar aparmaq bacarığını formalaşdırır. İbtidai sinif müəllimi

oxu və yazının şagird üçün olduqca mürəkkəb bir proses olduğunu bilməli və buradakı çətinlikləri nəzərə almalıdır. Oxudakı başlıca çətinliklər aşağıdakılardır:

1. Uşağın oxu dairəsi bir hərfdən ibarətdir. Oxumaq üçün isə eyni anda bir neçə hərfi birləşdirmək tələb olunur. Uşaq bir hərfi yadda saxlamaqla sonrakını oxumalı olduğundan böyük çətinliklə qarşılaşmalı olur.
2. Oxumağa başlayan uşağın görmə dairəsi də geniş deyildir. Ona görə də o sətri tez-tez itirir. Uşağın diqqətinin paylanma dərəcəsi artana qədər bu çətinlik qalır. Ona görə də müəllim bunu da nəzərə almalıdır.
3. Şagird çox vaxt oxuduğunun mənasını başa düşmür. Bu işdə şəkillər, suallar, əyani vasitələrlə şagirdə kömək etmək lazımdır.
4. Zəif, təcrübəsiz oxucu üçün ya birinci hecaya, ya şəklə və ya mətnə əsasən oxu xarakterikdir. Yəni uşaq bunlara əsasən uydurma aparır.

Yazı prosesi şagird üçün daha çətin prosesdir. Hələ onda heç bir avtomatlaşma olmadığından o eyni zamanda bir neçə sahəyə diqqət yetirməli olur, bu iş onda ağır bir zəhmətə çevrildiyindən yorulub bəzən dayanmaq məcburiyyətində qalır. Partada yazı zamanı düzgün oturmaq, qələmi əlində düzgün saxlamaq, yazı ilə gözün məsafəsini gözləmək, hərfləri qrafik cəhətdən, sözləri orfoqrafik cəhətdən düzgün yazmaq və s. bütün bu kimi işlər uşaq üçün ayrı-ayrı zəhmət tələb edən işə çevrilir. İbtidai sinif müəllimi şagirdlərin bu çətinliklərini diqqətlə izləməli, fərdi, cütlərlə, qrupla işləməklə, təlimi maraqlı təşkil etməklə, oyun xarakterli çalışmalardan, fəal təlim metodlarından istifadə etməklə bu gərginliyin maksimum azaldılmasına nail olmalıdır. Yazılış çətinliyi ümumi orfoqrafik qaydalarla müəyyənləşə bilməyən ümumi xarakterli orfoqramlar. Dilimizdə elə sözlər var ki, onların yazılışında çətinlik vardır. Buraya qəhrəman, bəxtəvər, qabiliyyət, bünövrə, bənövşə, peşman, bərabər, mərifət kimi sözləri aid etmək olar. Orfoqrafiya öyrənmək üçün istifadə ediləcək metod priyom və iş növlərini seçərkən, birinci növbədə, bunların xarakterini nəzərə almaq lazımdır. Birinci tip çətin orfoqramlı sözləri öyrətmək üçün orfoqrafik və orfoepik təhlillərdən paralel şəkildə istifadə etmək və bunlara müvafiq çalışmalar üzərində şagirdləri işlətmək lazım gələrsə, şagirdlərin diqqətini səhv edilə biləcək nöqtəyə cəlb etmək lazım gəlir. Məsələn, qəhrəman sözündə şagirdlərin diqqəti sözdəki ikinci ə saitinə cəlb olunmalıdır. Çünki şagirdlər ən çox bu səsin yazılmasında səhvə yol verirlər (qəhrəman əvəzinə qəhraman yazırlar). “Peşman” sözündə şagirdlərin diqqətini bu sözdəki səs və hiriflərin sayına cəlb etmək lazımdır. Demək lazımdır ki, peşman sözü iki hecadan və 6 səsdən ibarətdir. ş samitindən sonra i hərfi yazılmır. Bu xarakterli sözlərin düzgün yazılışını öyrətmək üçün üzündənköçürmə yazılardan, lüğət üzrə imladan istifadə daha faydalıdır. Bütün qaydaların öyrədilməsində morfemi analız və sintez etməyə imkan verən orfoqrafik təhlillərə geniş ehtiyac vardır. Belə təhlillərdən həm xüsusi həm də ümumi xarakterli orfoqramların öyrənilməsi üçün istifadə etmək mümkündür. Birinci halda, orfoqrafik təhlil orfoepik təhlillə paralel şəkildə aparılır. İkinci halda isə orfoepik təhlillə əlaqə nisbətən zəif olur. Hər hansı orfoqrafik qaydanın və ya orfoepik qaydaların öyrədilməsində iki mühüm mərhələ vardır. Bunlardan birincisi qaydanın öyrədilməsi və yaddaşda möhkəmləndirilməsindən, ikinci avtomatlaşdırma üçün təmrinlərdən ibarətdir. Birinci mərhələnin özü də iki mərhələyə ayrıla bilər. Birinci mərhələnin ilk fazasında qaydalar şagirdə şüurlu surətdə mənimsədilir, başa salınır. Bu fazada qaydaların sistem halında öyrənilməsi faydalıdır. Bu zaman əyani vasitələrdən istifadə faydalı ola bilər. İkinci faza birinci fazadan ayrılmasa da, başqa vəzifə daşıyır. Bu fazada şagirdlərin yadda saxlamaları üçün zəruri iş növlərindən istifadə edilir. Məsələn, ilk dərsdə saitlərin orfoqrafiyası ilə əlaqədar beş qayda əyani vasitə əsasında izah edilir və şagirdlərə bu qaydalara əsasən sözlərin yazılış formaları şərh olunur. Bu qaydalar hansı

əyani vasitə üzrə şərh edilirdisə, həmin əyani vasitə o gündən etibarən Azərbaycan dili kabinəsindən asılır və orada qalır. Bundan sonra şagirdlər həmin qaydaları yadda saxlamağa, hətta əzbərləməyə, sonra bu qaydaları yazıya tətbiq etməyə başlayırlar. Bu dərsdə və dərsdən sonra bir neçə dərsdə həmin sözlərlə zəngin olan rabitəli və rabitəsiz mətnlər üzərində müxtəlif çalışmalarla iş aparılır. Bununla da birinci mərhələnin hər iki fazasındakı iş başa çatdıqdan sonra, ikinci mərhələ üzrə işə- öyrədici və yoxlayıcı yazıların aparılması işinə başlanılır. Həmin yazı işləri yoxlanılır, qiymətləndirilir və buraxılan səhvlər üzərində təkrar-təkrar işlər gedir. Avtomatlaşdırma işləri təkcə dil dərsləri ilə məhdudlaşdırıla bilməz. Oxu dərslərində həmin xarakterik sözlərin yazılış formalarının şagirdlər tərəfindən izah olunması, həmin sözlərin yazılmasında hansı qaydaya əməl edildiyi şərh olunmalıdır. Digər fənn müəllimləri də bu cəhətə diqqət yetirmiş olsa, avtomatlaşdırma daha tez həyata keçirilə bilər. Orfoqrafiya təlimi dövründə müxtəlif təfəkkür fəaliyyətinə istinad edən çalışmalardan istifadə olunur. Bu rəngarəng çalışmaların hər birinin xarakterini, savadlı yazının təmin olunmasına nə verdiyini, hər bir yazı ilə əlaqədar hansından istifadə olunmasının daha əlverişli olduğunu, yazdırılma metodikasını bilmədən müvəffəqiyyət qazanmaq mümkün deyil. Yazılı çalışmaların əksəriyyəti dil dərslərində tək-tək hallarda bütöv dərs ərzində yerinə yetirilməlidir. Orfoqrafik cəhətdən düzgün yazı vərdişlərinə yiyələnməkdə dil dərslərində istifadə edilən müxtəlif yazı işlərinin müstəsna əhəmiyyəti vardır. Dil dərslərində istifadə edilən yazı işlərini müxtəlif metodistlər müxtəlif əsaslarda təsnif etmişlər.

**Məqalənin aktuallığı.** Oxu texnikasına yiyələnmək, dəqiq eşitmək, öyrənmək və s. mürəkkəb bir prosesdir. Bu proses oxuya yeni başlamış şagird üçün olduqca çətinlik yaradır. Məqalədə də bu kimi problemin aradan qaldırılması yolları göstərildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik onunla bağlıdır ki, məqalədə uşağın oxu prosesində üzləşdiyi çətinliklər göstərilməklə yanaşı, onu həlli yolları da göstərilir, zəruri tövsiyələr verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı, “Nasir”, 2003.
2. Seyidov Y. Azərbaycan dilinin qrammatikası (morfologiya). Bakı, 2000.
3. Ümum təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları) // Kurikulum, 2010, № 3.

**С.Ф.Сулейманзаде**

## Проблемы обучения чтению и письму в начальной школе

## Резюме

Овладение техникой чтения, точного слушания, обучения и т. Д. это сложный процесс. Для начинающего ученика этот процесс очень сложен. В статье показаны не только трудности, с которыми сталкивается ребенок в процессе чтения, но и способы их решения, а также необходимые рекомендации.

**S.F. Suleymanzada**

## Problems of teaching reading and writing in primary school


## Summary

Mastering reading techniques, listening accurately, learning, etc. is a complex process. This process is very difficult for a beginner. In addition to showing the difficulties a child faces in the process of reading, the article also shows ways to solve it, and gives the necessary recommendations.


**Redaksiyaya daxil olub:** 17.03.2021